Artıq mübarək oruclıq ayı başa çatır. Dünya müsəlmanları Ramazan bayramını qeyd etməyə hazırlaşırlar. Hicri-qəməri təqvimlə şəvval ayının 1-də başlayan və bir neçə gün davam edən bu bayram orucluğun qurtarması ilə əlamətdardır. Ramazan bayramı Allah-təalanın mömin bəndələrinə bir ay boyunca tutduqları oruc müqabilində mükafatıdır.

Ramazan bayramında oruc tutmaq haramdır. Müsəlmanlar bayram günü çimib təmizlənir, təzə və ya təmiz paltar geyirlər. Hamı bir-birini bayram münasibətilə təbrik edir, bir-biri üçün Tanrıya dua edir.

Hər bir müsəlman üçün bir ay boyunca oruc tutmaq fərz olduğu kimi, Ramazan bayramında fitrə zəkatı vermək də vacibdir. Hədisi-şərifdə deyilir ki, Allah bəndəsindən tələb olunan fitrə verilməyənədək Ramazan ayında tutulmuş oruc Yerlə göy arasında asılı qalır.



# Müsəlman dünyası Ramazan bayramını qarşılayır

Fitrəni yalnız imkanlı müsəlmanlar çıxarmalıdırlar. Varlı adam hər bir ailə üzvünün adından fitrə verməlidir. Vaxtilə fitrə buğda, arpa, xurma, düyü, kişmiş, qarğıdalı və s. ərzaq məhsullarından adambaşına təxminən 3 kiloqram həcmində ödənilirdi. Zaman keçdikcə kasıblara və ehtiyacı olanlara münasibətdə göstərilən bu xeyirxahlıq başqa formalar da almışdır. İndi fitrəni pul şəklində də verirlər. Əslində, bu, daha münasibdir. Belə ki, fitrəni pul kimi qəbul edən şəxs onu öz ehtiyaclarına uyğun şəkildə xərcləmək imkanı əldə edir. Özü də fitrə yalnız halal maldan verilməlidir.

Fitrə bayramdan bir-iki gün qabaq və ya bayram namazı başlamazdan əvvəl çıxarılmalıdır. Əks təqdirdə, bu, fitrə hesab olunmur, adi sədəqə sayılır.

Çıxarılan fitrə ilk növbədə ehtiyacı olan qohumlara, qonşulara, tanışlara, eləcə də digər insanlara verilir. Fitrə bir kasıbın azı birgünlük qida ehtiyacını ödəməlidir. Qeyd etmək lazımdır ki, bir şəxsin fitrəsi bir kasıba da verilə bilər, bir neçə kasıb arasında da bölünə bilər.

Ramazan bayramının fəzilətləri təkcə fitrə çıxarmaqla məhdudlaşmır. Bayram günlərində müsəlman ailələrində şənlik əhval-ruhiyyəsi hökm sürür. Uşaqlara hədiyyələr verilir, qonşular, dostlar bir-birinə qonaq gedir, bayram sovqatları aparırlar. Qohum-əqrəba bir yerə toplaşır, bayramı birlikdə qeyd edirlər. İnciklikər aradan qaldırılır, küsülülər barışırlar.

Bayram namazı qılındıqdan sonra müsəlmanlar həyatdan köçmüş yaxınlarının ruhuna Qurani-kərimdən ayələr oxutdurur, xatirələrini anırlar. Xalqımız bayram günü torpaqlarımızın müdafiəsi naminə canlarından keçmiş şəhidləri ehtiramla yad edir, onların rəşadətlərini xatırlayır.

Ramazan bayramı həm də müsəlmanların həmrəyliyini, birliyini, onların arasında qarşılıqlı anlaşmanı möhkəmlədən mühüm hadisədir. Bayramın davam etdiyi günlərdə insanlar bir-birinə qəlbən daha yaxın olur, bayram sevincini bölüşürlər.

Bütün müsəlman dünyasında olduğu kimi, Azərbaycanda da Ramazan bayramı yüksək səviyyədə qeyd edilir. Hərçənd 70 il davam etmiş sovet dönəmində xalqımız belə bir imkandan məhrum idi. Milli müstəqilliyin bərpasından sonra ölkəmizdə dövlət-din münasibətləri nizama salındı, xalqın etiqad azadlığı təmin edildi. Sovet rejiminin inanclı insanlara dözümsüz münasibətini, cəmiyyətə aşıladığı mənəviyyatsızlığı müasir sivil tələblərə cavab verən dövlət siyasəti əvəz etdi.

Bu siyasətin əsas istiqamətlərindən biri də yeni məscidlərin inşası, mövcud məscidlərin təmir və bərpa olunub möminlərin ixtiyarına verilməsidir. Sovet dövründə ölkədə cəmi 17 məscid fəaliyyət göstərirdi. Milli müstəqilliyin bərpasından bəri isə 2 minə yaxın məscid inşa olunmuşdur. Həmçinin kilsə və sinaqoqlar təmir olunmuş, yeniləri tikilmişdir. Bu istiqamətdə tədbirlər davam edir.

Eyni zamanda dövlət rəhbərliyi müntəzəm olaraq dini mərasimlərdə iştirak edir, inanclı vətəndaşların qayğıları ilə müntəzəm olaraq maraqlanır. Prezident İlham Əliyevin oruclıq ayında Qafqaz Müsəlmanları İdarəsinin təşkil etdiyi iftar mərasimində iştirakı artıq ənənəvi hal almışdır. Dövlət başçısı artıq on birinci dəfə həmin mərasimdə möminlərlə bir araya gəlmişdir. Sonuncu dəfə Prezident İlham Əliyev cari ayın 17-də müqəddəs Ramazan ayı münasibətilə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçirilmiş iftarda iştirak etmişdir. Mərasimə həmişəki kimi ölkəmizdə fəaliyyət göstərən xristian və iudaist icmalarının rəhbərləri də qatılmışdılar. Dövlət başçısının qeyd etdiyi kimi, "Azərbaycan öz milli, dini dəyərlərinə sadiqdir. Bizim dini dəyərlərimiz milli dəyərlərimizin tərkib hissəsidir və milli dəyərlərimizi dini dəyərlərsiz təsəvvür etmək mümkün deyil. Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir".

Azərbaycan tarixən milli-dini tolerantlığın hökm sürdüyü məkandır. Prezident İlham Əliyev iftar mərasimində çıxışı zamanı xüsusi olaraq vurğuladı ki, "Azərbaycan cəmiyyətində bütün xalqların, bütün dinlərin nümayəndələri bərabər hüquqlara malikdirlər. Əlbəttə, bu, Konstitusiyada təsbit edilib. Ancaq eyni zamanda real həyatda da bu, belədir. Deyə bilərəm ki, bu gün bu əlamətə görə Azərbaycan dünyada böyük dərəcədə fərqlənir, seçilir. Ölkəmizə gələn qonaqlar bir çox hallarda təəccüb hissi ilə bunu qeyd edirlər ki, siz buna necə nail ola bilmisiniz, sizdə dini, milli zəmində nəinki heç bir qarşıdurma, heç anlaşılmazlıq da yoxdur. Reallıq bundan ibarətdir ki, dövlət siyasəti, din xadimlərinin müdrikliyi, eyni zamanda cəmiyyətdə müsbət ab-havanın mövcudluğu və əlbəttə ki, ölkəmizin sürətli dinamik inkişafı burada əsas rol oynayır. Bu, bizim böyük sərvətimizdir". Dövlət başçısı əmin olduğunu bildirdi ki, milli mənəvi-dini dəyərlər bundan sonra da cəmiyyətin inkişafının əsas istiqaməti olacaq.

Bu ərəfədə Prezident İlham Əliyev mübarək Ramazan bayramı münasibətilə ölkə vətəndaşlarını və bütün dünya azərbaycanlılarını təbrik etmiş, onların hər birinə ən səmimi arzu və diləklərini ifadə etmişdir. Dövlət başçısı qeyd etmişdir ki, bu günlər cəmiyyətimiz əsl bayram sevinci ilə yaşayır. Orucluğun sınağından könül xoşluğu, fərəhlə çıxanlar dünyanın və ölkəmizin əmin-amanlığı naminə və Vətən torpağı uğrunda canını fəda etmiş şəhidlərimizin müqəddəs ruhları üçün dualar edirlər. Prezident mərhəmət, şəfqət və bərabərlik rəmzi olan Ramazan ayında inanclı vətəndaşların tutduğu orucun, etdiyi dua və niyyətlərin Allah dərgahında qəbul olunmasını arzulamışdır.

Bayramınız mübarək! Allah çıxardığınız fitrənin əvəzini versin!

***"Azərbaycan"***

Azərbaycan. - 2014.- 27 iyul.- S.1.